# Vətənimizin keşiyində

O gün 120 nəfər gəncin həyatında ən yaddaqalan tarixlərdən biri olacaqdır. Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Bərdə rayon şöbəsinin həyətində toplaşan həmin gənclər zabitlərin komandası ilə sıralanıb şəhərin baş meydanında ucalan ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzüb böyük rəhbərə ehtiramlarını bildirdilər.

Şəhər mədəniyyət evinin “Qarabağ” ansamblı yolasalma mərasimini şux musiqi ilə daha da rövnəqləndirirdi.

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Bərdə rayon şöbəsinin rəisi, polkovnik-leytenant Mətləb Murğuzov çıxış edərək dedi:

—Əziz gənclər, siz bu gündən güclü bir ordunun – Azərbaycan Ordusunun əsgərləri cərgəsində duracaqsınız. Qarşınızdakı əsas vəzifə işğal olunmuş torpaqlarımızı Ali Baş Komandanın əmri ilə düşmən tapdağından azad etmək və layiqli övlad kimi vətənimizin sərhədlərini qorumaqdır. Hərbi qayda-qanunlara əməl etməyi, komandirləriniz tərəfindən verilən əmr və göstərişləri vaxtında və düzgün icra etməyi tövsiyə edir, hərbi xidməti başa vurduqdan sonra sağ-salamat evinizə dönməyi arzu edirəm.

Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini Fəqət Şadlinskaya, müharibə veteranı Gəray Əsədov, oğlunu hərbi xidmətə yola salan Namiq Hidayətov və başqaları çıxış edərək gənclərə nümunəvi hərbi xidmət və möhkəm cansağlığı arzuladılar. Bildirdilər ki, yüzlərlə bərdəli Qarabağ müharibəsində könüllü özünümüdafiə taborlarında döyüşmüş və bir çoxu şəhid olmuşlar. Bərdəli dörd Milli Qəhrəman rayonun fəxridir. Bu qəhrəmanları bütün xalqımız sevir.

Mərasimdə çıxış edən çağırışçı Pərvin Qasımov bildirdi ki, hərbi xidmətə gedənlər vətənin layiqli övladları olduqlarını sübut edəcəklər. Söz veririk ki, ata-babalarımızın şərəfli döyüş yollarını ləyaqətlə davam etdirəcəyik.

Çağırışçı gənclər Azərbaycanın üçrəngli bayrağı altından keçərək avtobuslara əyləşdilər, mərasimdə iştirak edənlər onları gül-çiçəklə, xoş arzularla yola saldılar.

**Vəli İLYASOV,**
**“Respublika”.**

* * *